# Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# Yunus və Böyük Balıq



Müəllif: Edward Hughes
İllüstrasiya edən: Jonathan Hay
Tərcümə edən: Günay Əsədova
Uyğunlaşdıran: Mary-Anne S.

60 Hekayənin 26 -cisi

**www.M1914.org**

***Bible for Children,*** *PO Box 3, Winnipeg, MB R3C 2G1 Canada*

Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

Azərbaycan

Azerbaijan






Rəbb Allah dənizə güclü külək göndərdi.  Orada böyük fırtına oldu!  Gəmiçilər gəminin parçalanacağından və batacağından qorxdular.



3

Fırtına daha da gücləndi.  Gəmiçilər qorxuya düşüb hər biri öz allahını çağırdı və gəmi yüngülləşsin deyə orada olan yükləri dənizə atdılar.  Amma heç bir şey kömək etmədi.



4

Yunus gəmidə olan yeganə dua etməyən şəxs idi.  Əksinə, o, gəminin içində uzanmış və bərk yuxuya getmişdi.  “Sən nə üçün yatırsan?  Qalx, öz allahını çağır!  Bəlkə sənin allahın bizi yada salar və biz məhv olmarıq”.



5

Gəmiçilər qərara aldılar ki, onların çətinliyi Yunusla əlaqəlidir.  Yunus onlara Rəbdən qaçdığını dedi.  Onlar soruşdular: “Səninlə nə edək ki, dəniz qarşımızda sakitləşsin?”  Yunus onlara dedi: “Məni götürüb dənizə atın, onda dəniz qarşınızda sakitləşər, çünki bilirəm, bu böyük fırtına mənə görə baş verib”.



6

Gəmiçilər Yunusu gəmidən atmaq istəmirdilər.  Buna görə də onlar sahilə yan almaq üçün səylə avar çəkməyə başladılar.  Amma bacarmadılar.  Yalnız bir şey etməli idilər!



7

Bağışlanma üçün dua etdikdən sonra gəmiçilər Yunusu qaldırdılar və dənizə atdılar.  Yunus dalğaların altında gözdən itdikcə, dənizdəki fırtına və külək sakitləşdi.  Havadakı qəfil dəyişiklik gəmiçiləri fırtınadan daha çox qorxutdu.  Onlar yəqin ki, bunu yalnız Allahın edə biləcəyini bildilər.  Qorxu və heyrət içində onlar Rəbbə ibadət etdilər.



8

Bu arada itaət etməyən müjdəçi böyük sürprizlə üzləşdi. Dənizin dibində aciz-aciz bataraq, Yunus onu batmaqdan heç nəyin xilas etməyəcəyini bilirdi. O, boğula da bilərdi, amma Allahın başqa bir planı var idi.



9

Rəbb Yusunu udmaq üçün böyük bir balıq hazırlamışdı. Balıq düz vaxtında yetdi! Bir böyük qurtum, Yunus dənizdən çıxdı və balığın qarnına girdi. Yunus üç gün balığın qarnında qaldı. Onun düşünmək və dua etmək üçün çox vaxtı var idi.



10

Üç gündən sonra nəhayət, Yunus Allaha itaət etməyə söz verdi. Həmin an Allah balığa əmr etdi və o, Yunusu ağzından quruya atdı.



11

Bir daha Allah Yunusa Ninevaya getməsini və Allahın Sözünü təbliğ etməsini dedi. Bu dəfə Yunus getdi! Yunus şəhərə daxil olaraq car çəkdi: “Qırx gündən sonra Nineva dağılacaq!”



12

Ninevalılar Allahın Sözünə inandılar. Onlar günahlarına görə peşman olduqlarını göstərmək üçün oruc elan edərək, böyükdən tutmuş kiçiyə qədər hamı çul geyindi. Hətta padşah da özünü Allah qarşısında təvazökarlaşdırdı. O, taxtından qalxaraq şahlıq libasını əynindən çıxartdı və çul geyinib kül üstündə oturdu.
O, hər kəsə öz pis yolundan və əllərinin zorakılığından dönməsini və Allahın onları bağışlaması üçün dua etməsini əmr etdi.



13

Allah onları BAĞIŞLADI! Ninevalılar Allahın onları bağışladığını biləndə, yəqin ki, Ninevada böyük sevinc oldu.
… Ancaq bir adam – Yunus hirsləndi!



14
















Yunus və Böyük Balıq

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Yunus

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

**Allah, Onun** günah adlandırdığı pis şeyləri etdiyimizi **bilir**. Günahın cəzası ölümdür.

**Allah bizi o qədər çox sevir** ki, O Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və bizim günahlarımıza görə cəzanı ödəmək üçün gəldi. **İsa dirildi** və Göylərə getdi! İndi Allah bizim günahlarımızı bağışlaya bilər.

**Əgər sən öz günahlarından dönmək istəyirsənsə**, bunu Allaha de: Əziz Allah, mən inanıram ki, İsa mənim üçün öldü və indi yenidən yaşayır. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, indi mən yeni həyata malik ola və sonra Səninlə əbədiyyən yaşaya bilim. Sənin üçün və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin. Yəhya 3:16

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!**